# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

№ 126

Bakı şəhəri, 20 aprel 2023-cü il

***“Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) İdarə Heyəti üzvlərinin və digər işçilərinin əməkhaqlarının təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 2 mart tarixli 72 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında***

“Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 yanvar tarixli 3708 nömrəli Sərəncamının 2.3-cü bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 2 mart tarixli 72 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 3, maddə 583) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1-ci hissədə “maaşlarının sxemi” sözləri “maaşları” sözü ilə əvəz edilsin;

1.2. aşağıdakı məzmunda 5-ci hissə əlavə edilsin:

“5. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanı ilə təsdiq edilmiş “İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə”nin 2.6-1-ci bəndinə uyğun edilə bilər.”;

1.3. həmin Qərarla təsdiq edilmiş “Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) İdarə Heyəti üzvlərinin və digər işçilərinin aylıq vəzifə maaşlarının sxemi” aşağıdakı redaksiyada verilsin:

## Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) İdarə Heyəti üzvlərinin və digər işçilərinin aylıq vəzifə maaşları

| Vəzifələrin adı | Aylıq vəzifə maaşı (manatla) |
|---|---|
| İdarə Heyətinin sədri | 2300 |
| İdarə Heyəti sədrinin müavini | 1700 |
| İdarə Heyətinin üzvü, baş mühasib, departament müdiri, hüquqşünas | 1500 |
| Baş redaktor | 1200 |
| İdarə müdiri, redaksiya müdiri | 1050 |
| Şöbə müdiri | 970 |
| Aparıcı mühasib | 950 |
| Baş redaktorun müavini | 900 |
| İdarə müdirinin müavini, bölmə müdiri, buraxılış redaktoru, informasiya texnologiyaları mütəxəssisi | 850 |
| İdarə Heyəti sədrinin məsləhətçisi, redaktor, aparıcı mütəxəssis | 820 |
| Tərcümə redaktoru | 800 |
| İdarə Heyəti sədrinin köməkçisi, mühəndis, kontent menecer, aparıcı müxbir, tərcüməçi, rejissor, iqtisadçı | 750 |
| İdarə Heyəti sədrinin müşaviri, mütəxəssis, bölgə müxbiri, müxbir, qrafik-dizayner, böyük fotomüxbir, montaj rejissoru, əməyin mühafizəsi üzrə müfəttiş, mühasib | 700 |
| Videooperator, fotomüxbir, böyük korrektor, rabitə mütəxəssisi, səs operatoru, menecer | 650 |
| Sürücü, anbardar, mühəndis-elektrik, arxivçi, korrektor, mühafizəçi | 600 |
| Operator, rabitə operatoru, usta, elektrik | 550 |
| Xadimə | 500 |
| Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) xarici ölkələrdə çalışan müxbirləri | müxbirin fəaliyyət göstərdiyi ölkədəki Azərbaycan Respublikası fövqəladə və səlahiyyətli səfirinin 2023-cü il yanvarın 1-də mövcud olmuş əməkhaqqının 55 faizi məbləğində |

**2.** Bu Qərar 2023-cü il fevralın 1-dən tətbiq edilir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***